# Yeni nəslin kitab xəzinəsi




**Hər bir xalqın malik olduğu milli-mənəvi, tarixi-mədəni, ədəbi-bədii və elmi-fəlsəfi irsin toplanıb saxlanmasında, qorunmasında, təbliğində və gələcək nəsillərə ötürülməsində kitabxanaların rolu əvəzsizdir. Bu il 95 illik yubileyini qeyd edən Cəfər Cabbarlı adına Respublika Gənclər Kitabxanası da sırada mühüm yer tutur.**

Bu kitab məbədinin yaranma tarixi 1928-ci ildə kiçik bir qiraət zalından başlayıb. İllər keçdikcə fədakar mütəxəssislərin və kitabsevərlərin birgə səyi nəticəsində kitabxana zəngin fonda və böyük oxucu kütləsinə malik mütaliə ocağına çevrilib. Sonra kitabxana geniş imkanlara malik yeni, daha yararlı binaya köçürülüb. Cəfər Cabbarlının yaxın dostu olmuş aktyor, rejissor, Əməkdar incəsənət xadimi Məmməd Əlili xatirələrində yazırdı: "1957-ci il mənim üçün əziz ildir. Yeni binaya köçdükdən sonra kitabxana sanki yenidən yaranmış, daha da gözəlləşmişdir. Böyük dramaturqumuz Cəfər Cabbarlının adını daşıyan kitabxana mənəvi sənət mülkünə çevrilmişdir".

1976-cı ildə gənclər kitabxanası statusu almış mədəniyyət müəssisəsi hazırda öz ətrafında 16 mindən çox oxucu kütləsi toplayıb. Bu ünvan təhsil prosesinin iştirakçısı, kütləvi mütaliə mədəniyyətinin aşılayıcısı kimi tanınır. Ziyarətçilərinə həm ənənəvi, həm də elektron xidmətlər göstərən 8 şöbədən ibarət kitabxananın fondunda Azərbaycan, rus, ingilis və s. dillərdə bütün elm sahələrini, bədii ədəbiyyat və ensiklopedik nəşrləri əhatə edən 40 min adda 153 min nüsxə kitab cəmlənib. Burada elmi, tarixi, bədii əhəmiyyətini bu günə kimi saxlayan qeyri-latın qrafikalı 1000-dən çox kitabdan ibarət depozitar fond da mövcuddur. Ən "yaşlı" kitab 1891-ci ilə aiddir.

Kitabxanada 2018-ci ildən ALİSA – Azərbaycanın Avtomatlaşdırılmış Kitabxana İnformasiya Sistemi, həmçinin rəsmi sayt üzərindən elektron xidmətlər və istifadəçilərlə virtual ünsiyyət üçün bir sıra yeni funksiyalar tətbiq edilir. Elektron xidmətlərinə daim yenilənən 140 mindən artıq yazını cəmləyən elektron kataloq, 7 min 742-dən çox kitabı olan elektron kitabxana, 20 elektron məlumat bazası, 50-dən artıq nəşr nümunəsi olan dövri nəşrlərin elektron bazası, 200 ədəd səsli kitab fondu daxildir. Oxucular kitabxanaya gəlmədən onlayn xidmətlərdən yararlana bilirlər.

Burada fondun tələblərə uyğun komplektləşdirilməsinə xüsusi həssaslıqla yanaşılır, 20-dən çox nəşriyyatla əməkdaşlıq edilir ki, satınalma layihəsi sayəsində son 2 il ərzində fond 6 mindən çox kitabla zənginləşdirilib. Kitab təbliğatı ilə bağlı olaraq virtual sosial şəbəkələrdən geniş istifadə edilir. Bu gün gənclərin ən çox toplandığı və istifadə etdikləri kitabxananın sosial şəbəkə platformaları yeni kitablar, maraqlı məlumatlar, əlamətdar tarixlərlə əlaqədar hazırlanan multimedia məhsullarının gündəlik paylaşımları ilə ön sıralardadır.

Kitabxanada tez-tez ünlü yazarlarla görüşlər, imza günləri, gənclərin ədəbi-bədii kompozisiyaları, sərgilər və ekskursiyalar təşkil edilir. Yaddaqalan tədbirlərdən Türkiyə–Azərbaycan Dostluq, Əməkdaşlıq və Həmrəylik Fondunun (TADİV) rəhbəri, professor Aygün Attarın "Qarabağ zəfəri. 44 günün pərdəarxası", tarixçi alim Ziyad Əmrahovun "İrəvan quberniyasının tarixi (1850–1917-ci illər)" kitablarının, yazıçı-publisist Yunus Oğuzun Vətən müharibəsindən bəhs edən "Cığır" tarixi romanının təqdimatlarını, görkəmli ədəbiyyatşünas alim Qəzənfər Paşayevin 85 illik yubileyini, "Azərbaycan Ədəbiyyat Fondu" və "Azərbaycan–Türkiyə Sosial Tərəqqiyə Yardım" İctimai Birliyinin birgə təşkilatçılığı ilə keçirilən "Müharibə dövrü ədəbiyyatı" mövzusunda dinləmələri qeyd etmək olar.

Son 2 ildə Gənclər Kitabxanasının ideya müəllifliyi ilə ulu öndər Heydər Əliyevin 100 illiyinə həsr olunmuş sənədli materiallar əsasında yazılan "Tariximizin Heydər Əliyev zirvəsi", gənc yazarların Azərbaycanın şanlı Zəfər Tarixi mövzusunda qələmə aldıqları 30-dan çox ədəbiyyat nümunəsinin toplandığı "Sən azadsan" və digər kitablar işıq üzü görüb.

Kitabxana "Heydər Əliyev İli" ilə əlaqədar "Tarix yaradan şəxsiyyət – Heydər Əliyev – 100" layihəsini də həyata keçirib. Layihə çərçivəsində ulu öndərə həsr olunan 4 hissədən ibarət mini-film, virtual kitab sərgiləri, elektron məlumat bazası hazırlanıb, sosial şəbəkələrdə çoxlu sayda paylaşımlar edilib. Həmçinin kitabxananın rəsmi saytında "Heydər Əliyev – 100" adlı bölmə yaradılıb və burada ölkənin aparıcı mətbuat orqanlarında Ulu öndərdən bəhs edilən 100-dən çox məqalə toplanılıb.

Azərbaycan Prezidenti, müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə işğaldan azad olunmuş ərazilərə və Qarabağda Şəhər günlərinə aid virtual kitab sərgiləri, videomateriallar və elektron resurslar bazası da maraqla qarşılanıb. Kitabxanada müntəzəm olaraq gənclər üçün poliqrafik və veb dizayn mövzusunda təlimlər, şəhər və rayon MKS-lərinin əməkdaşları üçün elektron xidmətlər, treninqlər təşkil edilib. Təlim-tədris prosesindən kitabxananın öz əməkdaşları da kənarda qalmırlar. Son 2 ildə 10 kitabxanaçı kompüter proqramları üzrə tədris kurslarına göndərilib.



Gənclər Kitabxanasının əməkdaşları beynəlxalq konfrans, vebinar, forum və tədbirlərə də qatılırlar. Bir sıra ölkənin məşhur kitabxanaları ilə sıx əməkdaşlıq edilir.

Yubilyar kitabxana özünün müasir texnologiyalarla təchiz edilmiş oxu zalı, zəngin fondu ilə oxuculara daim yüksək xidmət göstərmək əzmindədir. Ən başlıcası isə burada çalışan peşəkar biblioqraf və kitabxanaçılar ziyarətçiləri təbəssümlə qarşılamaqdan, onlara səviyyəli xidmət göstərməkdən hədsiz məmnunluq duyurlar.

***Ə.DOSTƏLİ***
***XQ***

Xalq qəzeti .- 2023.- 22 dekabr, № 280.- S.10.